**Tarix və onun problemləri, №3 2009**

**AYTƏN MEHDİYEVA**
***tarix elmləri namizədi***

# SURİYADA QƏDİM ŞUMER MƏDƏNİYYƏTİNİN İZLƏRİ

Afrikanı Asiya ilə birləşdirən Şərqi Aralıq dənizi hövzəsi əlverişli iqlimi və strateji mövqeyinə görə qədim dövrlərdən mühüm mərkəzlərdən biri hesab olunur. Asiyanın bu hissəsi qədim sivilizasiya mərkəzləri meydana gələndən sonra həmin mərkəzlər arasında tranzit əlaqələrin yaranmasında mərkəz rolunu oynamaqla yanaşı həm də Qədim Misir, Mesopotamiya, Hett, Assuriya, Yunanıstan və başqa mədəniyyətlərin bir-birinə qarşılıqlı təsir etməsinə şərait yaratmışdı.

Suriya, Finikiya və Fələstinin mühüm mərkəzlərindən olan Yerixon, Bibl, Ebla, Alalah, Uqarit kimi yaşayış məntəqələri artıq e.ə.VIII – VI minilliklərdə əkinçi tayfalar tərəfindən məskunlaşmış, e.ə.III minillikdən onların mühüm ticarət mərkəzlərinə çevrilməsi daxili inkişafı sürətləndirmiş və şəhərlər meydana gəlmişdir ( 2, s.128). Şəhərlər gücləndikcə ətraf ərazilər və periferiyalar hesabına genişlənməyə başlamışdılar. Qərbi Asiyanın Şərqi Aralıq dənizi hövzəsi – Xanaan həm Misir, həm də Mesopotamiya ( xüsusilə Şumer) mədəniyyətinin nailiyyətlərini mənimsəmişdi.

Dəclə və Fərat çaylarının orta və aşağı axarları arası, Mesopotamiya kimi tanınan areal müasir İraq və Suriyanın bir hissəsində yerləşirdi. Qədim dövrlərdə bu areal dəqiq sərhədlərə malik olmadığına görə bəzi tarixçilər Mesopotamiya termininin aid edildiyi ərazi bölgüsü ilə razılaşmırlar. Onlar geniş mənada Yaxın Şərq anlayışı işlətdikdə təxminən 2 min $km^2$ əhatə edən İraq, Suriya, Fələstin və Türkiyə torpaqlarını nəzərdə tuturlar ( 1, s.6). Son illərdə meydana gələn «Böyük Mesopotamiya» termini isə İraq, Suriya, Türkiyənin cənub-şərq hissəsi və müəyyən tarixi dövrlərdə İran dağlıq ərazisinə aid edilir.

XX əsrin 60-70-ci illərində tədqiqatçılar ənənəvi metodlarla tədqiqat işlərinin aparılması ilə yanaşı yeni metodlara əl atdıqda Yaxın Şərq mədəniyyətlərinin öyrənilməsində yeni nəzəriyyələr meydana gəlirdi. Belə ki, Mesopotamiyanın mərkəz götürülməsi ilə yanaşı sərhədyanı ölkələr Suriya, Livan, Anadolu və İordaniyada müstəqil mədəniyyətlərin formalaşması ideyası tədqiqat obyektinə çevrilmişdi. 70-ci illərdə Suriya ərazisində Fərat çayı üzərində Tabka bəndinin inşası Cəbəl-Arud, Tell-Munkab, Məskən, Tell-Fray kimi yaşayış yerlərində təcili qazıntı işlərinin aparılmasını zəruri etmişdi. 80-ci illərdə tədqiqat işləri Suriyanın Türkiyə ilə sərhəd rayonlarında Habur rayonu (Tell – Mozan, Tell-Barri və b.) və Balih arealında ( Tell Hammam ət-Türkmən və b.) aparılmışdı. 1991 və 2003-cü illərdə İran körfəzi rayonunda aparılan hərbi əməliyyatlar tədqiqatçıları bu regionda işləri dayandırmağa vadar etmişdi.

Coğrafi şərait və dəqiq sərhədlərin olmaması Suriya – Fələstin ərazisində siyasi birliyin yaranmasına uzun müddət maneə olmuş və bu ərazidə vahid siyasi mərkəz yaranmamışdı. Bu ərazilər müxtəlif xalqların miqrasiya etdiyi əsas regionlardan birinə çevrilmişdi. Son illərdə xüsusilə Şimali Suriya ərazisində ararılan tədqiqatlar göstərir ki, bütün çətinliklərə baxmayaraq, burada yerli mədəniyyətlər yaranmış, dünya mədəniyyət xəzinəsinə böyük töhfələr vermiş və qonşu regionların – Cənubi İkiçayarası mədəniyyəti ilə qarşılıqlı təsir şəraitində inkişaf etmişdi.

E.ə.IV minilliyin sonunda Suriya ərazisində Fərat çayının döngəsində Şumer tipli koloniyaların dağıdılması və boşaldılması burada bir müddət Şumer mədəniyyətinin yayılmasının qarşısını almışdı.Buna baxmayaraq, J.Marqeronun rəhbərliyi ilə fransız ekspedisiyasının apardığı tədqiqatlar Fərat çayının orta axarlarında erkən dövrdə salı-

nan Mari şəhərinin kifayət qədər böyük bir ərazini əhatə etdiyini göstərdi. Mesopotamiya və Şimali Suriyanın əsas ticarət şəhərləri arasında salınan bu şəhər tədricən varlanaraq Mesopotamiya üçün vacib olan əsas xammalın (ağac, metal, daş) gətirilməsinə nəzarət etmişdi. Bu isə Maridə Şumer ənənələrinin və mədəniyyətinin yayılmasına səbəb olmuşdu. Maridən tapılan mixi mətnlərdə Şumer ənənələri əsasında təsirlər və silindrik möhürlər bu fikri təsdiqləyir. E.ə.2600-2340-cı illərə təsadüf edən bu sivilizasiyanın çiçəklənməsi dövründə şumerlilər Mari sülaləsini «Daşqından sonra X sülalə» adlandırırdılar (4, s.195). A.Paro tərəfindən tədqiq edilən böyük saray bu dövlətin regionda nüfuza malik olduğunu göstərir.

Marinin Fərat boyu ticarətdə əlverişli mövqe tutması onun dövrünün böyük dövlətləri Ebla ( Suriya) və Akkad ( Mesopotamiya) ilə mürəkkəb münasibətlərinin yaranmasına səbəb olmuşdu. Mari həm də Fərat çayının qolları vasitəsilə Habira və Bəlx ərazisi ilə də əlaqələr saxlamışdı. Tell – Huer ərazisində alman alimlərinin tədqiqatları göstərdi ki, arxaik dövrdə Şumerlərin təsiri Şimali Suriyada Cəzirəyə qədər çatmışdı (4, s.196). Məbədlərin quruluşu, aşkar olunan heykəlciklər yerli mədəniyyət ilə yanaşı Şumer mədəniyyətinin bu ərazidə inkişaf etdiyini bir daha təsdiqləyir. D.Beyin fikrincə, e.ə. III minilliyin ortalarında formalaşan bu ənənələrdən sonradan Yerusəlimdə Solomon məbədinin tikintisi zamanı istifadə edilmişdi.

Müxtəlif mədəniyyətlərin arasında yerləşən, daim bu mədəniyyətlərin təsirini hiss edən, həmin mədəniyyətlərin bir – birini inkar etmədiyi təqdirdə mövcud ola biləcək Marinin bəzən «nəzarətçi postu» rolu oynaması fikri ilə rastlaşmaq mümkündür. Tədqiqatçılar qeyd olunan sivilizasiya mərkəzlərindən birinin təsirinin gücləndiyi təqdirdə digər mədəniyyət mərkəzlərinin mövqeyi, həmçinin yerli mədəniyyətin özünün hansı şərtlər daxilində inkişaf etməsi qanunauyğunluqlarını aşkar etməyə çalışırlar. Onlar Mesopotamiya, Suriya və ya Orta Fərat mədəniyyətinin inkişafı nəticəsində formalaşan Mari ərazisində Mesopotamiya yönümlü sivilizasiyanın üstünlük təşkil etdiyi fikrinə üstünlük verirlər. Ebla ərazisində aparılan tədqiqatlar da bu məsələnin köklü şəkildə dəyişməsinə səbəb olmamışdır ( 9, s.100 – 101).

Şəhər sivilizasiyasının yarandığı mərkəzlərdən biri Şimali Suriyada yerləşirdi. Akkadlı Sarqon (e.ə.XXIV əsrin sonu) və onun nəvəsi Naram-Suenin (e.ə.XXIII əsr) hakimiyyəti dövründə Sidr dağları (Livan) və Gümüş dağlara ( Kiçik Asiya ərazisinə təsadüf edən Tavr dağının bir hissəsi) yürüş edərkən Yarmut, Ebla, Armanum, Urşu şəhərlərinin adlarını çəkmişlər.

XX əsrin 70-ci illərinə qədər Şərqi Aralıq dənizi hövzəsi sivilizasiyaları və sinifli cəmiyyətlərinin qonşu rayonlardan geri qalması, Misirlə olan münasibətlərin inkişafı e.ə. III minillikdə Finikiyada Biblın əsas sivilizasiya, Şimali Mesopotamiyada Tell – Brak şəhərciyinin yeganə Şumer mədəniyyəti mərkəzi kimi çıxış etməsi fikrinin üstünlük təşkil etməsinə səbəb olmuşdur. Aparılan tədqiqat işləri, Fərat çayı sahillərində müxtəlif qurğuların inşası zamanı əldə olunan materiallar bu fikirləri təkzib etmişdir. Həmin materiallar əsasında Fərat çayı boyunca Murad-su çayına qədər olan ərazidə külli miqdarda Şumer mədəniyyəti nümunələrinin aşkar edildiyi Şumer məskənlərinin yerləşdiyi və e.ə.III minillikdə Şumer və Şərqi Aralıq dənizi hövzəsi sivilizasiyaları arasında birbaşa əlaqə olduğu dəqiqləşdirilmişdir. P.Mattenin rəhbərlik etdiyi İtaliya eksperidisiyasının mühüm mədəniyyət mərkəzi olan Ebla şəhərini aşkar etməsi Mesopotamiyada Şumer və Akkad mətnlərinin verdiyi məlumatları təsdiqlədi. Bu sivilizasiya Hələbdən 50 km aralıda Tell-Mardixdə tapılmışdır (10, s.33-34). Eblada aşkar olunan saray binası təxminən Mari sarayları ilə eyni dövrə təsadüf edirdi. Suriyanın şimal-qərb hissəsində formalaşan bu sivilizasiya Şumerlə əlaqələr saxlamışdır. Buradan Qədim Səltənət dövrünə aid edilən Misir heroqlifiq yazıları ilə yanaşı Şumerdən mənimsənilən

yazı sistemi ilə əvvəllər məlum olmayan sami dilində yazılan təxminən 15 min mixi yazı lövhəsi dövrümüzə qədər gəlib çatmışdır (11, s.198). Ebla arxivi hakim sülalənin Şimali Suriya, Anadolu, Fəratın orta axarları və Mesopotamiya ilə geniş əlaqələr saxladığını göstərmişdir.

Tell-Mardixin iki dövrü: e.ə.XXVI-XXIII əsrlər - Ebla şəhərinin müstəqil siyasət yürütdüyü dövr və e.ə.XIX-XVII əsrlər - Eblanın Hələb şəhəri mərkəz olmaqla Yamxad dövlətindən asılı vəziyyətdə olduğu dövr barədə məlumatlar daha çoxdur.

E.ə.IV minilliyin sonlarında Şimali Suriyada protoşəhər yaşayış məskəni kimi meydana gələn, təxminən 56 hektarlıq bir ərazini əhatə edən, 20-30 min nəfər əhalisi olan Ebla sürətlə inkişaf edərək artıq e.ə. III minilliyin ortalarında iri şəhər mərkəzinə çevrilmişdir. Əsas su mənbələrindən kənarda yerləşən şəhər suvarma əkinçiliyinə görə deyil, sənətkarlıq və ticarətin inkişafına, Mesopotamiya və Misir dövlətləri arasında ticarətdə oynadığı rola görə yüksək inkişafa nail olmuşdur. Yazılı mətnlər əhalinin zeytun yağı istehsalı, maldarlıqla məşğul olduğunu, mis, qalay və qiymətli metallarla ticarətə üstünlük verdiyini bildirirdilər ( 8, s.196).

Sahilyanı ərazidən fərqli olaraq, Suriyanın daxili rayonlarında dəfələrlə ölkəni birləşdirmək üçün cəhdlər edilmişdir. Bütün Suriya üzərində hökmranlıq etməyə iddialı olan iri mərkəzlərdən biri Ebla hesab olunmuşdur.

E.ə. XXV – XXIV əsrlərdə bütün Suriyanı əhatə edərək iri dövlətə çevrilərək Fəratın orta axarında yerləşən, ebla tayfalarının digər qolunu təşkil edən tayfaların məskunlaşdığı Mari dövləti ilə rəqabət aparmışdır.

Sosial baxımdan Ebla inkişaf etmiş inzibati idarəetmə sisteminə malik tipik şəhər – dövlət hesab olunur. Dövlətə hökmdar başçılıq edirdi. Ebla hökmdarı malikum (məsləhət verən) titulu daşıyırdı. Həmin söz «en» şumer işarəsi ilə yazıya alınırdı. Bu isə Ebla malikumlarının, şumer ensiləri kimi, məhsuldarlıq ilahəsi ibadətinin kahinləri olduğunu göstərir. Eyni zamanda mixi yazılarda «hökmdar» mənasını ifadə edən «luqal» ideoqramının sami dilində «şarrum» sözünə uyğun gəldiyi məlumdur. Akkad dilində «hökmdar» mənasını bildirən bu söz yalnız qərbi sami, o cümlədən Ebla dilində «əyan» mənasında işlədilirdi. Ebla malikumunun iki müşaviri və çoxlu inzibatçı məmurları var idi. Eblanın ərazisi mərkəzi (sa-za) və periferiya (uru-bar) hissələrə ayrılırdı. Hər iki hissə mərkəzə tabe olsa da,sa-za torpaqları bilavasitə saray torpaqları hesab olunurdu. Uru-bar torpaqları isə mərkəzə tədarük göndərirdi. Eblada iri saray kompleksləri mövcud idi və burada arxivlər, xammal ehtiyatları, gətirilmə qiymətli mallar saxlanılırdı (6, s.215-216).Arxivlərdən aşkar olunan sənədlərin tərtibi burada Şumer mədəniyyətinin güclü təsiri olduğunu aşkar edir.Yerli ənənələr əsasında inkişaf edən Ebla mədəniyyəti sinifli cəmiyyət və dövlətin inkişafı prosesində Şumer sivilizasiyasına məxsus hazır norma və etalonları istifadə edirdi. Böyük hissəsi Şumer ideoqramlarından ibarət olan xüsusi şumer – ebla lüğətləri hazır mətnlərin qavranılmasını asanlaşdırmaq məqsədi daşıyırdı.

Ebla beynəlxalq ticarət mərkəzi sayılırdı. Sənədlərdə tez – tez səyyar tacirlərin ( şumer dilində lu-kar) adları çəkilirdi. Saraylarda işlənilməmiş bədəxşan lazuriti, Misir fironlarının adları ( Xefren, I Pioni və b.) qeyd olunan qablar aşkar edilmişdir. Lakin buradan aşkar olunan Misir, İran yaylası və s. ərazilərdən gətirilən məhsullar bilavasitə həmin ərazilərdən gətirilmirdi. Mənbələr Eblanın Şimali İkiçayarasının Abarsal, Mari, Dəclə çayı sahilində yerləşən əyalətlər, Şimali Şumerdə Kiş və b. şəhərlərlə sıx əlaqələri olmuşdur. Tarixi mənbələr Eblanın Suriya və Fələstinin Uqarit, Bibl və başqa şəhərləri, Misir, Kiçik Asiya və İran yaylası şəhər və dövlətləri ilə əlaqələri barədə məlumat vermirlər.

Ebla təxminən e.ə.XXIII əsrdən geniş işğalçılıq yürüşlərinə başlayan Akkad hökmdarlarının diqqətini cəlb etmişdir. Ticarəti inkişaf etdirmək və yeni ərazilər ələ keçirmək məqsədilə Akkad hökmdarları Sarqon və Naram-Suen bu ərazilərə yürüşlər təşkil edirdilər. İki rəqib Mari və Ebla Akkad hökmdarına Şimali Suriya və Aralıq dənizinin zəngin rayonlarına çıxmağa maneə olurdular. Dəclə çayı sahili və Suzdan tapılan çox saylı yazılar Naram-Suen Maqan, Meluhha yürüşlərindən sonra Ebla, Subartu, Elam və İran körfəzi, Zaqros dağları istiqamətində uğurlu yürüşlər etdiyini və « dünyanın dörd cinahının hökmdarı» titulunu qazandığını bildirirlər (7, s.124). E.ə.2225-ci ildə Akkadlı Naram-Suenin İbbi – Zikirin hökmranlıq etdiyi Eblanı tutaraq dağıtması şəhərin gələcək taleyinə öz təsirini göstərsə də, təxminən e.ə. 2000-ci ildən şəhərin inkişafında yeni mərhələ müşahidə olunur, şəhər ərazisi yenidən güclü divarlarla əhatələnir, saraylar yenidən inşa edilirdi (7, s.220). Kutilərin hakimiyyəti dövründə e.ə. XXII əsrdə Laqaş canişini Qudea artıq «Ebla dağlarında yerləşən Urşadan (Qaziantəpə, Türkiyə)» tikinti materiallarının gətirilməsi barədə məlumat verirdi.

Akkad sülaləsinin süqutundan sonra III Ur sülaləsi hökmdarları e.ə. XXI əsrdə Mari və Ebla üzərində Mesopotamiyanın hegemonluğunu bərpa etmişlər.

Şulqinin hakimiyyəti dövründə Şimali Suriya Şumer – Akkad dövlətinin nüfuz dairəsinə daxil olmuşdur. Urşa və Ebladan gələn çaparlara ərzaq verilməsi, həmçinin adları çəkilən şəhərlərin hakimlərinin məcburi mükəlləfiyyət formasında Enlil allahı məbədlərində qurban verilməsi nəzərdə tutulan heyvanları göndərməsi barədə məlumat verən mənbələr dövrümüzə qədər gəlib çatmışdır ( 6, s.218).

Amar – Zuenin hakimyyəti dövrünə aid edilən Şumer təsərrüfat mətnlərində Bibl ensisi haqqında məlumat verilirdi. Bibldə isə e.ə.XXI əsrə aid olan Şumer möhürləri və Şumer lövhələri aşkar olunubdu. Tədqiqatçıların fikrincə, Şumer mətnlərində adı çəkilən « Mahazu» ( qərbi sami dillərində maxxuzu – bazar, liman mənasını verir) Oront çayı vadisindən cənubda, Suriya sahillərində yerləşən, Bibldən geri qalmayan Uqarit şəhəridir ( 6, s.218).

E.ə.III minilliyin sonu – II minilliyin əvvəllərində Şərqi Aralıq dənizi sahili regionun böyük bir hissəsində şəhər-dövlətlər meydana gəlir. Relyefin dərə-təpəli olması, ölkənin ayrı-ayrı hissələrində müxtəlif təsərrüfat formalarının mövcudluğu və onlar arasında güclü iqtisadi əlaqələrin olmaması nəticəsində bu şəhər-dövlətlər Nil və Fərat çayları sahillərində olduğu kimi vahid bir mərkəzləşdirilmiş dövlətin tərkibində birləşə bilməmişlər. Eyni zamanda bu şəhər-dövlətlər qonşu xalqlardan, Misir dövləti siyasi pərakəndəlik dövrü yaşadığına görə xüsusilə İkiçayarası sivilizasiyalarından siyasi və mədəni nailiyyətləri mənimsəmişlər.

Beləliklə, Suriya ərazisində qədim Şumer mədəniyyətinin izlərinin tapılması, Şumer mədəniyyətinin Mesopotamiya ərazisindən çıxaraq qonşu regionlara yayılması probleminin araşdırılmasının böyük tarixi əhəmiyyəti vardır. Bu problemin öyrənilməsi regionda tarixi hadisələrin xronoloji çərçivəsinin dəqiqləşdirilməsində mühüm rol oynayır. Mari, Ebla və digər şəhərlərin coğrafi mövqeyi, Fərat çayı və Aralıq dənizi arası ərazidə yerləşmələri Suriya, Misir və Mesopotamiyada baş verən hadisələrlə əlaqədar burada baş verən hadisələrin sinxron dövrünün müəyyən edilməsinə şərait yaradır və e.ə. III minilliyin ikinci yarısında Suriya və Mesopotamiyanın iri şəhər mərkəzlərində baş verən sosial, inzibati və iqtisadi strukturları, inkişaf qanunauyğunluqlarını izləməyə, əldə olunan mənbələrin təhlili isə e.ə.II minillikdə baş verən hadisələrin əvvəlki dövrlə müqayisədə inkişaf istiqamətini müəyyənləşdirməyə imkan verir. Materialların təhlili həm tarixi hadisələr, həm sosial-iqtisadi inkişaf, həm də mədəni nailiyyətlərin əldə olunmasında varislik prinsipinin mühüm rol oynadığını göstərir.

## ƏDƏBİYYAT

1. Бардески К.Д. Месопотамия колыбель человечества. М., 2008
2. Васильев Л.С. История Востока. Т.1. М., 2001
3. Гладкий В.Д. Древний мир. Т.2. М., 1998
4. Доминик Бей. Ранний и средний бронзовый век ( 3000-1600 гг. до н.э.) // История человечества. Т.II. III тыс. до н.э. – VII в. до н.э. Под ред. А.Х.Дани и Ж.-П.Моэна. М., 2003
5. Древняя Эбла ( Раскопки в Сирии). Сост. и введ. П.Маттиэ. М., 1985
6. История Древнего Востока. Зарождение древнейших классовых обществ и первые очаги рабовладельческой цивилизации. Ч.2. Передняя Азия, Египет. М., 1988
7. История Древнего Востока. Под ред. В.И.Кузищина. М., 2002
8. История человечества. Т.II. III тыс. до н.э. – VII в. до н.э. Под ред. А.Х.Дани и Ж.-П.Моэна. М., 2003
9. Маргерон Ж.К. Мари – самобытность или заимствования // Древняя Эбла (Раскопки в Сирии). Сост. и введ. П.Маттиэ. М., 1985
10. Матвеев К., Сазонов А. Пять жизней древней Сури.М., 1989
11. Редер Д.Г., Черкасова Е.А. История древнего мира. В 2-х частях. Ч.1. М., 1985

**АЙТАН МЕХТИЕВА**
***кандидат исторических наук***

### СЛЕДЫ ДРЕВНЕЙ ШУМЕРСКОЙ КУЛЬТУРЫ В СИРИИ

Древняя Шумерская цивилизация, возникшая в Южной Месопотамии, сумела расширить сферу своего влияния на соседние регионы, а также на территорию Сирии опираясь на приобрётенные достижения. Исследования доказывают, что черты характерные Шумерской культуре слились с местными элементами и сформировали оригинальную культуру на этой территории. Эти центры, расположенные на территории Сирии, входили в систему сложных отношений с государствами, возникшими в Месопотамии, а иногда превращались в обжект захвата. Найденные материалы указывают на важную роль принципа преемственности в исторических событиях, в социально-экономическом, а также культурном развитии.

**AYTAN MEHDIYEVA**
***Cand.of Hist. Sciencies***

### THE ANCIENT SHUMERIAN CULTURE' TRACES IN SYRIA

The Ancient Shumerian civilization occurred in Southern Mesopotamia, was a success to enlarge the sphere of its influence on the neighbouring regions, also on the territory of Syria based on the gained achievements. The investigations can prove that the characteristic features of Shumer culture merged with local elements and formed the original culture on this territory. These centers settled down on Syria territory, were going in the complicated relations with the governments occurred in Mesopotamia, sometimes they became the occupation object. Gained materials indicate the important part of the succession principle in the historic events, the social-economical, also the cultural development.

***Rəyçilər: t.e.d.Q.S.İsmayılzadə, t.e.d.İ.Məmmədov.***

***Azərbaycan Dövlət Universiteti Tarix fakültəsi «Ümumi tarix» kafedrasının 30 aprel 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №09).***